

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

9 dekabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 47 (3560)


# GÜCLÜ İQTİSADİYYAT, QÜDRƏTLİ AZƏRBAYCAN UĞRUNDA

## *Prezident İlham Əliyevin yüksəliş strategiyası öz hədəfinə çatır*

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı Prezident İlham Əliyevin qəbul etdiyi dövlət proqramları və bu proqramların icrasını şəxsi nəzarətində saxlamaq məqsədilə etdiyi səfərlər ölkəmizin tərəqqisində önəmli rol oynayır. Dövlət başçısının uğurlu iqtisadi siyasəti respublikamızın hərtərəfli inkişafının təmin edilməsinə, paytaxtla bölgələr arasında fərqin azalmasına səbəb olur. İndiyədək bölgələrdə onlarla kiçik, orta və böyük həcmli müəssisələr istifadəyə verilib, müasir infrastruktur yaradılıb, turizm inkişaf edib, aqrar sektorda məhsul istehsalı dəfələrlə artıb.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Quba rayonuna səfərləri çərçivəsində istifadəyə verilən müəssisələrin, həmçinin infrastruktur obyektlərinin də rayonun iqtisadi həyatında yeni canlanma yaradacağı, sakinlərin rifah halını daha da yüksəldəcəyi şübhəsizdir. Çünki gerçəkləşən bu layihələr yeni istehsal sahələri və yeni iş yerləri deməkdir, bundan başqa, turizim bölgəsi kimi Qubanın cazibəsinin artırılmasına xidmət edən sosial təşəbbüslərdir.




Səfərə gəlincə, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar. Daha sonra Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra yaradılan şəraitlə tanış olublar. Bu layihənin özünəməxsusluğu ondan ibarətdir ki, burada istirahət, idman, təlim və tədris bir məkanda cəmləşib ki, bu cür komplekslərin yaradılması regionlarda əmək bazarına yeni iştirakçıların daxil olmasına ciddi təkan verir.

Prezident İlham Əliyev həmin gün "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin və Quba-Qonaqkənd avtomobil yolunun açılışını edib, Heydər Əliyev Fondu tərəfindən Qubanın Birinci Nügədi kəndində inşa olunmuş 1 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə tanış olub.

Daha sonra dövlətimizin başçısı, birinci xanım və qızları Qubanın Qonaqkənd qəsəbəsində yeni inşa olunan Mədəniyyət Evində yaradılan şəraitlə tanış olublar. Qəsəbədə ümummilli lider Heydər Əliyevin abidəsinin ətrafında yeni park salınıb. Həmçinin qəsəbə Mədəniyyət Evinin istifadəyə yararsız, qəzalı vəziyyətdə olan binası sökülərək əvəzində yenisi tikilib.

Mədəniyyət Evi ilə tanışlıqdan sonra qəsəbə sakinləri ilə görüş keçirilib. Prezident onu qarşılayan qəsəbənin ağsaqqalı ilə səmimi həmsöhbət olub və bu zaman ölkə miqyaslı məsələlərlə bağlı da önəmli fikirlər səsləndirib.

Dövlətimizin başçısı qeyd edib ki, quruculuq işləri, həm Qarabağda, həm də Zəngəzurda aparılır, əgər Ermənistan şərtlərimizi qəbul etsə, səmimi yanaşma sərgiləsə, onda Cənubi Qafqazda bütün xalqlar sülh, əmin-amanlıq şəraitində yaşayacaq: "Müharibə dövründə bizi saxlamaq istəyənlər olub, kifayət qədər güclü dairələr olub, amma bizi dayandıra bilmədilər. Mən demişdim ki, bizə tarix versinlər torpaqlarımızdan nə vaxt çıxır, o an biz dayanmağa hazırıq. Bu gün də eyni sözü deyirəm. Amma deyirəm ki, bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq. Ona görə hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir. Biz istədiyimizə nail olmuşuq, oluruq və olacağıq. Yaxşı olar ki, bu məsələ konstruktiv şəkildə danışıqlar yolu ilə, qarşılıqlı anlaşma yolu ilə həll olunsun".

Prezident İlham Əliyev xüsusilə vurğulayıb ki, son bir ildə Qarabağ, Zəngəzur bölgəsinə 10 dəfədən çox səfər edib, eyni zamanda, Azərbaycanın qalan bölgələri də diqqətindən kənar qalmır.

# DİN-də KOLLEGİYA İCLASI KEÇİRİLİB



Dekabrın 3-də Daxili İşlər Nazirliyində videokonfrans formatında Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov Kollegiyanın müzakirəsinə çıxarılan məsələlərin kriminogen duruma təsiri, vətəndaş məmnunluğunun təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi baxımından aktual olduğunu bildirib.

Gündəlikdəki məsələlər üzrə nazir müavini - Baş Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis general-leytenantı Fazil Quliyev, Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalov və Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi, polis polkovniki Gündüz Sadıxov məruzə ilə çıxış ediblər.





İclasa yekun vuran daxili işlər naziri Vilayət Eyvazov son üç ilə yaxın bir müddətdə keçirilmiş 10 Kollegiya iclasından hər birinin insanların həyatının, sağlamlığının, hüquq və azadlıqlarının, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin və mülkiyyətinin hüquqazidd əməllərdən qorunması sahəsində polisin fəaliyyətinin təkmilləşdirilməsinə, düzgün və məqsədyönlü istiqamətləndirilməsinə, ən başlıcası vətəndaş məmnunluğunun təmin olunmasına xidmət etdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, vətəndaşların müraciətlərinə baxılması, problemlərinin həlli, istintaq və təhqiqat prosesində qanunçuluğa riayət edilməsi, cinayət və digər hüquqpozmalar nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi sahəsində müvafiq Kollegiya qərarları əsasında həyata keçirilmiş tədbirlər daha məqsədyönlü davam etdirilməlidir. Hər bir şəxsin qanunla qorunan hüquq və azadlıqları daim etibarlı qorunmalı, vətəndaşların əsassız saxlanılması, incidilməsi, ümumən onların narazılığını doğuran bütün neqativ hallar aradan qaldırılmalıdır.

Çıxışında polisin bayır xidmətinin aparılmasına da toxunan nazir xüsusən post-patrul və yol-patrul qurumlarının işinin müasir tələblərə uyğun təkmilləşdirilməsinin, şəxsi heyətin polis etikasını dərindən mənimsəməsi üçün davamlı treninqlərin keçirilməsinin vacibliyini də qeyd edib. Asayişin qorunmasında, vətəndaşların təhlükəsizliyinin təmin edilməsində, yol hərəkətinə nəzarətin həyata keçirilməsində, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə beynəlxalq təcrübədə özünü doğrultmuş metodlara üstünlük verilməsini tələb



edib, eyni zamanda Nazirliyin aidiyyəti struktur qurumlarının rəhbərlərinə fəaliyyətdə texnoloji yeniliklərin geniş tətbiqi ilə bağlı tapşırıqlarını çatdırıb.

Ölkə Prezidentinin qarşıya qoyduğu əsas vəzifələrdən birinin vətəndaş məmnunluğunun təmin edilməsi olduğunu bir daha xatırladan nazir V.Eyvazov əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi, arxayınlığa yol verilməməsi, əməliyyat-xidməti fəaliyyətin ayrı-ayrı istiqamətlərində mövcud olan çatışmazlıqların tam aradan qaldırılması, icrası nəzərdə tutulan məsələlərin həllinin ilin sonunadək təmin edilməsi üçün konkret göstərişlər verib.

# AZƏRBAYCANÇILIQ: BİZİ BİRLƏŞDİRƏN DƏYƏR

## Ulu öndərin vəfatından 18 il ötür

Xalqın təkidi və tələbi ilə 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra yenicə qazandığımız müstəqilliyi qorumaq, onun bünövrəsini möhkəmləndirmək, inkişafını düzgün məcraya yönəltmək mümkün oldu. Məhz ümummilli liderimizin qüdrəti, sarsılmaz iradəsi, çevik daxili və xarici siyasəti nəticəsində Azərbaycan əsl azadlığa və həqiqi demokratiyaya qovuşdu. Ordu quruculuğu istiqamətində təxirəsalınmaz tədbirlər görüldü. Cəmiyyət həyatında sabitliyin qorunması, asayişin bərpası dövlətçiliyin təməl prinsiplərindən birinə çevrilməklə yanaşı, hüquq mühafizə orqanlarında, xüsusən, daxili işlər orqanlarında kök salmış neqativ təmayüllər aradan qaldırılmağa başlandı. Keçirilən kadr islahatları, beynəlxalq polis təşkilatları ilə əməkdaşlıq peşəkarlığın artırılmasına, xidməti vəzifələrin səmərəli icrasına zəmin yaratdı. Müvafiq beynəlxalq qurumların, beynəlxalq ekspertlərin rəyləri nəzərə alınmaqla qəbul edilmiş mühüm sənədlər mükəmməl qanunvericilik bazası yaratdı, onların uğurla icrası müsbət nəticələrin əldə olunması üçün hüquqi zəmin rolunu oynadı. Daxili İşlər Nazirliyini dövlətin əsas sütunlarından biri hesab



edən ulu öndərin uzaqgörən siyasəti, müdrikliyi sayəsində ölkədə bərqərar olan əmin-amanlıq, ictimai sabitlik iqtisadi və siyasi inkişafa öz müsbət təsirini göstərdi.

Ümummilli liderin formalaşdırdığı azərbaycançılıq ideologiyası milli həmrəyliyin və birliyin əsası oldu. Bu birlik xalqımızın öz haqq savaşı uğrunda "dəmir yumruq" kimi düşmənə qarşı birləşməsində də əhəmiyyətli rol oynadı.

Bir daha əmin olduq ki, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, naminə Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi bizi daha böyük qələbələrə doğru aparır. Bu gün xalqımız ulu öndərin layiqli davamçısı, qalib sərkərdə kimi dünya siyasətində öz imzası olan Prezident İlham Əliyevin ətrafında sıx birləşib. Məhz bu birlik bölünməz və bütöv Azərbaycanı qurmağa və qorumağa yönəlib.

Müstəqilliyimizin bərpasında, qorunub-saxlanılmasında misilsiz xidmətlər göstərən ulu öndər daim qəlbimizdə yaşayacaq, ideyaları hər zaman yolumuza işıq salacaqdır.

Zəmanəmizin ən böyük azərbaycanlısını hörmətlə anır, ehtiramla yad edirik.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# ŞƏHADƏTİN BİR İLİ...

## Masallıda şəhid hərbi qulluqçumuzun xatirəsi yad edilib

**Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmış DİN-in Daxili Qoşunlarının hərbi qulluqçusu Ramazan Vəliyevin il mərasimi keçirilib.**




Daxili İşlər Nazirliyinin və Masallı Rayon Polis Şöbəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları şəhidin məzarını ziyarət edərək, məzarı önünə çiçək dəstələri düzüblər. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.




Şəhidin ömür yolundan, eləcə də Vətən müharibəsindəki hərbi əməliyyatlar zamanı göstərdiyi igidliklərdən danışılıb. Şəhidin ailə üzvləri övladları ilə fəxr etdiklərini, göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə çavuş Ramazan Hilal oğlu Vəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

# DÜŞMƏN "MİRASI"

## Xocavənd və Füzulidə növbəti dəfə silah-sursat aşkar edilib

İşğaldan azad edilmiş ərazilərin mina və digər partlayıcı vasitələrdən təmizlənməsi, erməni hərbi birləşmələrinin geri çəkilərkən atdıqları silah-sursatın yığılması üçün aidiyyəti





dövlət qurumlarının təmsilçiləri, o cümlədən daxili işlər orqanlarının əməkdaşları tərəfindən fasiləsiz zəruri tədbirlər yerinə yetirilir.

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Xocavənd və Füzuli rayonlarında keçirilən nəzarət-profilaktiki tədbirlər nəticəsində erməni hərbi birləşmələrinin tərk etdiyi mövqelərdən növbəti dəfə silah-sursat aşkar edilib.

Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları 7 avtomat, 3 qumbaraatan, 3 pulemyot, 7 qumbaraatan mərmisi, 8 əl qumbarası, 4 partladıcı vasitə, 3 sandıq, 5435 müxtəlif çaplı patronlar və digər döyüş sursatı götürərək aidiyyəti üzrə təhvil veriblər.

Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları isə minaatan qurğu, avtomat, qumbaraatan, 56 qumbaraatan mərmisi, 22 əl qumbarası, 21 partladıcı vasitə, rabitə qurğusu, 20 sandıq, 1600 patron, 124 ədəd 30 mm-lik mərmi və digər döyüş sursatı götürərək aidiyyəti üzrə təhvil veriblər.

**Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyat–axtarış tədbirləri keçirən polis, eyni zamanda profilaktik tədbirlərlə narkomaniya əlehinə yeni cəbhə açıb. Vətəndaşların bizimlə eyni cəbhədə yer alması isə mübarizəmizin kəsərini daha da artırır.**

Ötən həftə narkomaniya ilə mübarizə çərçivəsində orta məktəblərdə davam etdirilən maarifləndirici tədbirlər də sağlam gəncliyin və gələcəyin qorunmasına xidmət edib.

Paytaxtın Nizami rayonunda Rayon Polis İdarəsinin təşkilatçılığı ilə 32 nömrəli tam orta məktəbdə keçirilən "Sağlam gələcəyimiz naminə narkomaniyaya yox deyirik!" adlı tədbirdə yuxarı sinif şagirdləri, müəllim və valideynlər iştirak edib.






# MAARİFLƏNDİRMƏ

## mübarizəmizin kəsərini artırır



Tədbirdə **Nizami RPİ-nin rəisi, polis polkovniki Ziya Əliyev** çıxış edərək narkotik vasitələrin qanunsuz döriyyəsinə qarşı aparılan mübarizədən, rayon ərazisində keçirilən anti-narkotik tədbirlərindən və sağlam gəncliyin qorunmasının önəmindən bəhs edib.

Bakı şəhər BPİ-nin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova, polis idarəsinin Veteranlar Şurasının sədri Firdovsi Bayramov və 25-ci Polis Şöbəsinin inspektoru, polis kapitanı Günel Mirzəyeva da mövzu ətrafında izahedici söhbətlər apararaq, tədbir iştirakçılarına cinayətkarlığın artmasına təkan verən narkomaniya barədə ətraflı məlumat veriblər.

Qaradağ rayonunun Qobustan qəsəbəsində yerləşən 223 nömrəli orta məktəbdə də eyni mövzuda tədbir keçirilib.

Tədbirdə Rayon Polis İdarəsinin İctimai Təhlükəsizlik Şöbəsinin bölmə rəisi, polis mayoru Namiq Abdullayev, bölmənin baş inspektoru Ramin Hacıyev və Narkotiklərlə Mübarizə Bölməsinin baş əməliyyat müvəkkili Anar Şıxəliyev şagirdlərə narkotik bəlasına düçar olmamaları üçün tövsiyələr verib, sualları cavablandırıblar.

Bərdədə narkomaniyanın fəsadlarından bəhs edən maarifləndirmə tədbiri 5 saylı tam orta məktəbdə keçirilib.

Tədbirdə çıxış edən **Bərdə RPŞ-nin rəisi, polis polkovniki Muradəli Babayev** əvvəlcə narkotik vasitələrin insan həyatı və sağlamlığı üçün yaratdığı təhlükələrdən danışıb. Narkomaniyaya qurşananların bu bəladan uzaqlaşmaqda çətinlik çəkdiyi, bir çox insanın yaşadığı acı sonluq diqqətə çatdırılıb. Şagirdlərin gələcəkdə mükəmməl təhsilə yiyələnərək xalqımız, dövlətimiz üçün faydalı fərdlər kimi yetişmələri istiqamətində tövsiyələr verilib.

Ağcabədidə isə polislər Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialında tələbələrlə görüşüb narkomaniyanın zərərlərindən danışıblar.

Tədbirdə çıxış edən **Ağcabədi RPŞ-nin rəisi, polis polkovniki Ənvər Həsənov** tələbələrə narkotik asılılığının törətdiyi fəsadlarla bağlı geniş məlumatlar verərək, insan həyatına və sağlamlığına vurduğu zərərlərdən ətraflı söhbət açıb. Eyni zamanda rayon ərazisində narkotik alqı-satqısı ilə məşğul olan şəxslərə qarşı aparılan genişmiqyaslı əməliyyat tədbirləri tələbələrin diqqətinə çatdırılıb.

Kürdəmirin və Daşkəsənin 1 saylı tam orta məktəblərində, eləcə də Samuxun bir neçə orta məktəbində analoji mövzuda silsilə tədbirlər keçirilib.

# Narkomaniya ilə birgə mübarizə

## Polis-vətəndaş həmrəyliyi gəncliyi qorumağa yönəlib

**Bu gün cinayətkarlığa, xüsusən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı aparılan qətiyyətli mübarizə ümumvətəndaş hərəkatına çevrilib desək, yanılmarıq.**

Genefondumuza təhdid olan narkomaniyanın dövlətin və xalqın inkişafını əngəlləyən maneəyə çevrilməsini önləmək üçün gecəli-gündüzlü xidmət aparan polisin həyata keçirdiyi




əməliyyat tədbirlərinə dəstək olaraq vətəndaşların DİN-nin, eləcə də Baş Narkotiklərlə Mübarizə İdarəsinin sosial şəbəkələrdəki səhifələrində minnətdarlıq hissləri ifadə etmələri, həm də "ağ ölüm" alverçilərini ifşa etməkdə əsl vətəndaş mövqeyi sərgiləmələri bunu deməyə əsas verir.

Paytaxtın Yasamal rayonunda da narkomaniya adlı bəlanın gənclər arasında geniş yayılmasının qarşısını alınmasında polis-vətəndaş həmrəyliyi deyilənlərin bariz nümunəsidir.

**Yasamal RPİ Narkotiklərlə Mübarizə Bölməsinin rəisi, polis kapitanı Fəxrəddin Nəsirovun** sözlərinə görə, vətəndaş-polis həmrəyliyi narkomaniya ilə mübarizədə əhəmiyyətli dərəcədə rol oynayır. İdarə əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində cari ilin dekabr ayının 1-dək **114-ü satış, 160-ı saxlama olmaqla 274 fakt qeydə alınıb. Onlardan 8 kiloqram 209.135 qram heroin, 25 kiloqram 138.799 qram marixuana, 1 kiloqram 522.369 qram psixotrop maddə metamfetamin, 45.921 qramı isə tiryəkdir. Ümumilikdə,**



**33 kiloqram 389.549 qram narkotik vasitələr qanunsuz dövriyyədən çıxarılıb. Qeydə alınmış faktların açılması 84 faiz təşkil edib ki, bu da ötən illə müqayisədə 6 faiz çoxdur.**

Bundan başqa, əməliyyat yolu ilə 1 odlu silah da aidiyyəti üzrə təhvil verilib.

Bölmə rəisi narkomaniya ilə mübarizədə maarifləndirməni, ictimai qınağı, eyni zamanda uşaqlara valideyn nəzarətini ən effektiv metodlardan biri hesab edir.

Yeri gəlmişkən, bugünlərdə Yasamal RPİ-nin təşkilatçılığı ilə UNEC-in Rəqəmsal İqtisadiyyat fakültəsində "Narkomaniyaya qarşı mübarizə" mövzusunda keçirilən maarifləndirici tədbirdə asayiş keşikçiləri valideynlərin övladlarını daima nəzarətdə saxlamalarının vacib məsələ olduğunu bildiriblər. İnsanların sağlamlığını, həyatını ciddi təhlükə altına alan, əxlaq və mənəvi dəyərləri sarsıdan, cəmiyyətin harmoniyasını pozan, bir sözlə həyatı iflic edən narkomaniyaya münasibətdə hər kəsin barışmaz mövqe tutaraq birlikdə mübarizə aparmalı olduğu da diqqətə çatdırılıb.

# MİLLİ QƏHRƏMANLA GÖRÜŞ



Polis Akademiyasının kursantları ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrin ehtiyatda olan baş çavuşu, Qarabağ Müharibəsi veteranı, Milli Qəhrəman İbad Hüseynovun görüşü keçirilib.

Tədbir ulu öndər Heydər Əliyevin və Vətən Müharibəsi şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Bundan sonra Polis Akademiyasının rəis müavini, polis polkovniki İlyas İsayev fəxri qonağı tədbir iştirakçılarına təqdim edib.

Birinci Qarabağ Müharibəsi zamanı keçdiyi döyüş yolu barədə kursantlara məlumat verən Milli Qəhrəman 1993-cü ildə erməni terroristi "Avo" ləqəbli Monte Melkonyanı yaxalayaraq məhv etməsindən danışıb. Eləcə də Vətən müharibəsi zamanı Ali Baş Komandan, Prezident İlham Əliyevin apardığı siyasətdən və göstərdiyi qətiyyətdən, ordumuzun şücaətindən bəhs edib.

Qeyd edək ki, İ.Hüseynov göstərdiyi şücaət və xidmətlərinə görə 1994-cü ildə Azərbaycan Bayrağı ordeni, Türkiyə Respublikasında müxtəlif medallarla və mükafatlarla, 2020-ci ildə isə Azərbaycan Prezidenti tərəfindən "Milli Qəhrəman"ı adına layiq görülüb.

*"Polis"*

# ƏMƏKDAŞLARIMIZ TÜRKİYƏDƏKİ TƏHSİLLƏRİNİ TAMAMLADILAR




Türkiyə Respublikası DİN Emniyet Genel Müdirliyi Polis Akademiyasının Polis Rəisləri Təlim Mərkəzində (PAEM) məzun olan Azərbaycan Respublikası DİN-in 6 əməkdaşının buraxılış tədbiri keçirilib.

Mərasimdə Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov, Polis Akademiyasının rəisi, professor Yılmaz Çolak, Azərbaycan Respublikası DİN-in Türkiyədəki nümayəndəsi, polis polkovniki Elşad Süleymanov, Akademiyanın professor-müəllim heyəti və məzunlar iştirak ediblər.

Tədbir Vətən uğrunda canlarından keçmiş Azərbaycan və Türkiyə şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Sonra qonaqlara məzunların təhsil müddətindəki təlimlərini, fəaliyyətlərini, məşğuliyyətlərini əks etdirən videoçarx nümayiş olunub.

Buraxılış mərasimində çıxış edənlər pandemiya səbəbindən təxirə salınan təlimin bu il avqust ayından etibarən yenidən start götürməsi, eləcə də ezam olunan əməkdaşların təhsilini uğurla başa vurması münasibətilə onları təbrik ediblər. Bildirilib ki, məzunlar qardaş ölkələrin DİN rəhbərlikləri tərəfindən onlara göstərilən etimadı doğruldaraq ötən müddət ərzində bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün səylə çalışaraq peşə vərdişlərinin sirrlərinə daha dərindən yiyələniblər. Məzunların qazandıqları təcrübənin cinayətkarlıqla mübarizədə, eyni zamanda, ölkədəki daxili sabitliyin, ictimai asayişin və təhlükəsizliyin təminində yüksək peşəkarlıq nümayiş etdirəcəklərinə əminlik ifadə olunub.

Tədbirin sonunda məzunlara diplom və hədiyyələr təqdim edilib, xatirə şəkli çəkdirilib.

Məlumat üçün qeyd edək ki, bu il keçirilən müsabiqədə PAEM-in təkmilləşdirmə kursunda Azərbaycan Respublikası DİN-in 15 əməkdaşı təhsil almaq hüququ qazanıb.

# XİLASKARLARI YAXINDAYDI...

Bəzən xoşagəlməz hadisələrlə üzləşirik. Düşdüyümüz vəziyyətlərdən çıxmaq üçün gözümüz məhrəm kimsəni gəzir. Meqapolis həyatında yardıma tələsən kimsə olmayacaq deyəsən sualı ilə uğraşdığımız anda yanımızda gülümsər siması, səmimiyyəti ilə bizə yaşadıqlarımızı unutduran polisi görəndə içimiz qəribə bir rahatlıq tapır.

Onları hər an yanımızda görə bilmək hissi həm də bir ümidə çevrilir. Polis ümiddir, polis güvəncdir. Çoxumuz bəlkə də bu fikirdəyik...

Bayır xidməti polisin simasıdır. Bu səbəbdən də məhz polis-vətəndaş münasibətlərinin qurulmasında onların rolu böyükdür. Paytaxt sakini Əbdül Talıblının Səməd Vurğun bağında unutduğu mobil telefonunun **Nəsimi RPİ Post-Patrul Xidməti Bölüyünün əməkdaşları, polis serjantları İsrail Tağıyev, Simran Allahverdiyev və İsmayıl Kərimov** tərəfindən tapılaraq qaytarılması barədə DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda asayiş keşikçilərinə olan inam və etibarını ifadə etməsi bunun bariz nümunəsidir.

Elə redaksiyamıza




**Məşhur teleaparıcı Kamilə Babayeva: "Mən ora gələndə, elə bildim ki, anamın üç oğlu var"**

ünvanlanan həmin məktubun sorağıyla həmsöhbətim olan **Nəsimi RPİ PPXB-ün komandir müavini, polis baş leytenantı Orxan Şirinov** bayır xidmətinin özünəməxsus çətinlikləri barədə məlumat verdi. Bildirdi ki, səhər təlimatından sonra təhkim olunmuş ərazidə əməkdaşlar xidmətə başlayırlar.

Komandir müavini bugünlərdə baş verən daha bir hadisə barədə danışdı. Diqqətə çatdırdı ki, ərazidə xidmət aparan polis serjanları - **Natiq Kərimov, Ramin Bayramov və Nihad Quliyev** Milli Bankın yaxınlığında yaşlı qadının yerdə köməksiz vəziyyətdə qaldığını görüblər. Məlum olub ki, nəvəsini məktəbdən götürməyə gedən qadının təzyiqi düşüb və o, yıxılaraq ayağını sındırıb. Vaxt itirmədən xidməti avtomobillə qadını xəstəxanaya çatdıran həmkarlarımız lazımi tibbi yardımın göstərilməsini də təmin ediblər.

Həmin yaşlı qadının tanınmış jurnalistin-teleaparıcının anası olması isə paqondaşlarımıza minnətdarlıq əlaməti olaraq Kamilə Babayevanın dislokasiya yerinə gəlməsi və xilaskarlarla xatirə şəkli çəkdirməsi zamanı bəlli olub.

Kamilə xanımla biz də əlaqə saxladıq və: "Sizin həmkarlarınız əsl qəhrəmandırlar. Mən onlara nə qədər təşəkkür etsəm azdır. Onlarla çəkdirdiyim fotonu sosial şəbəkə hesablarımda, xəbər saytlarında paylaşacağam ki, qoy bu çətin şəraitdə, istidə, soyuqda, gecə-gündüz bilmədən xidmətimizdə duran, bizlərə təhlükədən daha yaxın olan qəhrəmanları hamı tanısın. Vətəndaşlar bilsin ki, onlar çıxılmaz vəziyyətə, dara düşəndə tək deyillər. Onları hər bəladan, hər xətadan qoruyan polislər var. Allah sizləri qorusun!"

Evin tək övladı olan teleaparıcının "Mən ora gələndə, elə bildim ki, anamın üç oğlu var" fikrinə isə əlavə şərhimiz yoxdur...

*Teymur Əlizadə,*
*polis mayoru*

# TƏLƏBLƏR UĞURLA İCRA OLUNUR

***Polis təkcə cinayətkarlıqla mübarizə aparmır, həm də vətəndaşları yaşadıqları ərazi üzrə qeydiyyata alır, şəxsiyyət vəsiqəsi və ümumvətəndaş pasportu ilə təmin edir.***



DİN-in müstəqil struktur hissəsi olan Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin paytaxtda və yerlərdə fəaliyyət göstərən Qeydiyyat Məsələləri Bölmələri də üzərlərinə düşən vəzifə və öhdəlikləri layiqincə yerinə yetirir.

"Polis"in suallarını cavablandıran **Sabunçu RPİ QMB-nin rəisi, polis polkovnik-leytenantı Kərim Məmmədov** vətəndaşların yaşadıqları yer üzrə qeydiyyata alınmalarının DİN rəhbərliyi tərəfindən qarşıya qoyulmuş tələblərdən olduğunu bildirdi. Qeyd etdi ki, keçirilən reydlər nəticəsində qeydiyyatsız yaşayanlar müəyyən edilərək idarəyə dəvət olunur və müvafiq sənədlərə əsasən yaşadığı ünvan üzrə qeydiyyata alınır. Vətəndaşların da fəallıq nümayiş etdirdiklərini deyən müsahibimiz vətəndaş məmnunluğunun təmini məqsədilə ərazi üzrə artıq 3 minə yaxın sakinin qeydiyyata alındığını vurğuladı. Məhkəmə mübahisələri yarandığı zaman sorğuların cavablandırılması, aidiyyəti üzrə yönləndirilməsi, digər köməkliklərin göstərilməsi, o cümlədən vəfat etmiş şəxslərin yaxınlarının müraciəti əsasında qeydiyyatdan çıxarılmaları da bölmənin icra etdiyi xidmətlərdəndir.

# Kursantlarımız qalibdir



DİN-in Polis Akademiyasının kursantları idmanın bir çox sahəsində həm beynəlxalq, həm də yerli yarışlarda uğurlara imza atır. Bugünlərdə onlayn qaydada keçirilən beynəlxalq şahmat və Akademiyadaxili tennis yarışlarında kursantlar növbəti dəfə öz bacarıqlarını nümayiş etdiriblər.

Şahmat üzrə onlayn yarış mövcud əməkdaşlıq protokolları çərçivəsində Rusiya Federasiyası, Belarus, Qazaxıstan və Azərbaycan respublikalarının xüsusi təyinatlı ali təhsil akademiyalarının nümayəndələri arasında keçirilib.

Yarışa Fiziki hazırlıq kafedrasının baş müəllimi, polis polkovnik-leytenantı İlham Hüseynovun rəhbərliyilə hazırlaşan I kurs kursantları Arzu İsmayılov, Hacıəli Əhədzadə, Əli Əliyev, III kurs kursantı Əli Məhərrəmli və V kurs kursantı Rəşad Mehdiyev üstün zəka sahibləri olduqlarını əldə etdikləri nəticələrlə təsdiq ediblər.



Beləliklə, yarışın yekunlarına görə, Akademiyanın yığma komandası I yerə, şəxsi birincilikdə isə Rəşad Mehdiyev II yerə layiq görülüb.

Kursantlar Akademiya rəhbərliyi tərəfindən mükafatlandırılıb.

"Stolüstü tennis" yarışı isə Polis Akademiyasının daimi heyəti və kursantların iştirakı ilə baş tutub. Yarışı döyüş və xidməti hazırlıq üzrə rəis müavini, polis polkovniki İlyas İsayev açıq elan edərək iştirakçılara uğurlu və rəqabət dolu mübarizə arzulayıb.

Yarışda 5 kurs üzrə 5 komanda və daimi heyət üzrə 1 komanda iştirak edib. Ümumilikdə 18 əməkdaş yarışa qatılıb. Şəxsi birincilikdə daimi heyət komandasının üzvü Tədris-metodiki şöbənin baş inspektoru, polis polkovnik-leytenantı Rəşid Əhmədov I yerə, komanda şəklində isə I yerə daimi heyət, II yerə II kurs , III yerə IV kurs layiq görülüb.

Qaliblərə kubok və qiymətli hədiyyələr təqdim edilib.

*"Polis"*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 50 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında aparılır. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidməti tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2021-ci il noyabr ayının 27 - dən dekabr ayının 27 - dək **http://www.mia.gov.az** ünvanda yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar İdarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***- şəxsiyyət vəsiqəsi;***
***- ali təhsil haqqında diplom;***
***- hərbi bilet;***
***- əmək kitabçası (olanlar üçün);***

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları», test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-93-51; (012)-590-97-42; (012) 590-92-37; (012) 590-92-21; (012) 590-93-64; (012) 590-95-23.**

### DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN TEST İMTAHANININ PROQRAMI

Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

**Qanunvericilik aktları və nəzəri bilik sahələri:**

- Azərbaycan Respublikasının Konstitusiyası
- Dövlət və hüquq nəzəriyyəsi
- Cinayət hüququ
- Cinayət prosesi
- İnzibati hüquq
- Kriminalogiyanın əsasları
- BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi
- «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu
- «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu

### DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜÇÜN MİNİMAL FİZİKİ HAZIRLIQ NORMATİVLƏRİ

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə müvafiq olaraq, daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslərin fiziki hazırlıq səviyyəsini müəyyən edilmiş aşağıdakı tapşırıqlar və normativlər əsasında yoxlanılır:

**Qaçış:** 100 (yüz) metrə – 15 saniyə, 1000 (min) metrə – 4 dəqiqə;

**Turnikdə dartınma:**
**- çəkisi 80 kiloqramadək -** 10 dəfə;
**- çəkisi 80 kiloqramdan yuxarı -** 6 dəfə;

**Qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi -** 20 dəfə;

**Arxası üstə uzanmış halda gövdənin döşəmədən qaldırılıb-endirilməsi -** 20 dəfə.

# Qələbəyə imza atdılar...



**Bugünlərdə Tunisin Hammamet şəhərində Dünya Budo döyüş növləri üzrə federasiyası və TFC döyüş liqası ilə birgə açıq Dünya çempionatı keçirilib.**

Çempionata Azərbaycan Budo döyüş növləri yığma komandası 11 nəfərlik heyətlə qatılıb. Yığma komandanın tərkibində DİN-in 3 nəfər polis əməkdaşı turnirdə iştirak edib.

Əlahiddə Çevik Polis Alayının Xüsusi Təyinatlı 3-cü taborun 1-ci bölüyünün polis nəfəri, polis serjantı İbrahim Məmmədov Free Kontakt (K-1) versiyası üzrə 70 kiloqram çəki dərəcəsində Mərakeş və Amerika idmançılarına, finalda isə yerli idmançıya qalib gələrək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

Peşəkarlardan ibarət yığma komandanın kapitanı, Sumqayıt Şəhər Polis İdarəsinin Xüsusi təyinatlı bölüyünün polis nəfəri, polis serjantı Xəyal Cəmilbəyli peşəkarlar arasında keçirilən Kəmər döyüşündə 84 kiloqram çəki dərəcəsində TFC liqasının çempionu tunisli idmançı Marwen Hadchini 1-ci raundda texniki nokaut edərək Dünya kəmərinin sahibi olub.

Digər əməkdaşımız Sabunçu Rayon Polis İdarəsinin 13-cü Polis Bölməsinin təhqiqatçısı, polis kapitanı Azər Əhmədov isə Full Kontakt versiyası üzrə 75 kiloqram çəki dərəcəsində II yerə layiq görülüb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Sumqayıt ŞPİ 2-ci və 3-cü PB** əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müxtəlif vaxtlarda ayrı-ayrı 13 evə quraşdırılmış su sayğaclarını oğurlamaqda şübhəli bilinən Kotec qəsəbə sakini, əvvəllər məhkum olunmuş F.Nəcəfov saxlanılmışdır.

◆◆◆

**Xəzər RPİ 1-ci PŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Ş.Rəcəbovun yaşadığı Şüvəlan qəsəbəsindəki evinə baxış zamanı oradan nömrəsi silinmiş pnevmatik tapança, 15 ədəd patron və patron darağı aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Qazax RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində dekabrın 6-da şəhər ərazisində "CPS Construction" MMC-yə məxsus qarajdan 5376 manat dəyərində 192 ədəd dəmir dirək və oradakı avtomobillərdən naqil oğurlamaqda şübhəli bilinən rayon sakinləri T.Əzizov, A.Bənnayev, F.Musayev və Bakı şəhər sakini E.Cəfərov saxlanılmışlar.

◆◆◆

**Zərdab RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ayrı-ayrı vaxtlarda Bıçaqçı kəndi ərazisindən "Aztelecom" MMC-nin Zərdab Telekommunikasiya Qovşağına məxsus ümumilikdə 455 metr rabitə naqilini oğurlamaqda şübhəli bilinən kənd sakini X.Həsənov saxlanılmışdır. Araşdırma aparılır.

## Dekabr ayının 1-dən 7-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 304 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 107 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 407, o cümlədən borclu şəxs qismində axtarışda olan 300 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 13 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 15 nəfər ölmüş, 5 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 105 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik